AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# HƏYAT BİLGİSİ FƏNNİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN HƏYATİ BACARIQLARININ FORMALAŞDIRILMASI

İxtisas: 5801.01-Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (həyat bilgisinin tədrisi metodikası)

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Zeynab Hacı qızı Mehdiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**NAXÇIVAN-2024**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** pedaqoji elmlər doktoru, professor
**Fərahim Balakişi oğlu Sadiqov**

**Rəsmi opponentlər:** biologiya elmləri doktoru, professor
**Rauf Lütvəli oğlu Sultanov**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Tofiq Əli oğlu Əliyev**

pedaqogika üzrə fəlsəfə doktoru
**Kəmalə Yunis qızı Qaybalıyeva**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurasının bazasında yaradılmış BFD 2.40 Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ______ pedaqoji elmlər doktoru, professor
**İsmayıl İsrafil oğlu Əliyev**

Dissertasiya şurasının elmi katibi: ______ pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Qızıltac Tarverdi qızı Şahbazova**

Elmi seminarın sədri: ______ pedaqoji elmlər doktoru, dosent
**Zərövşən Yaşar qızı Babayeva**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Təhsil İslahatlarına dair direktiv sənədlərdə yetişən gənc nəslin nümayəndələrinin, o cümlədən ibtidai sinif şagirdlərinin həyati bacarıqlara yiyələndirilməsi ilə bağlı bir sıra ideyaların, zəruri tələblərin olması bu sahədə çalışan mütəxəssislərin, xüsusilə ibtidai sinif müəllimlərinin qarşısına mühüm vəzifələr gətirir. Bu vəzifələrin müvəffəqiyyətli həlli hər şeydən əvvəl günün vacib tələblərilə səsləşən ümumpedaqoji prinsiplərə, metodlara istinad etməklə ibtidai sinif şagirdlərində həyati bacarıqların formalaşdırılması məsələsi mühüm aktuallıq kəsb edir. Bu baxımdan ibtidai siniflərdə həyat bilgisi fənninin tədrisi prosesində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması, inkişaf etdirilərək aşkara çıxarılması vacib hesab olunur.

Müasir dövrün bəzi səciyyəvi xüsusiyyətlərini qeyd etməli olsaq, hazırda elm və texologiyanın surətlə inkişaf etdiyi bir zamanda baş verən dəyişikliklərə uyğunlaşmaq, özünütəkmilləşdirmə və özünü inkişafa hazır olmaq və bu sahədə əldə olunan bacarıqlar şəxsiyyətin inkişafında mühüm əhəmiyyət kəsb edir.

İbtidai təhsil üzrə ümumi təlim nəticələrində ibtidai sinif şagirdlərində bir sıra bacarıqların inkişaf edərək formalaşdırılması məsələsi birbaşa olmasa da, məntiqi şəkildə öz əksini tapmışdır. Ümumi təlim nəticələrinə əsasən tədris edilən fənlərdə ibtidai sinif şagirdlərində bir sıra bacarıqlar formalaşır ki, bu da onları bir növ həyata hazırlamış olur. İbtidai sinifdə artıq ünsiyyət bacarığı, müşahidə etmək bacarığı, kollektivdə işləmək bacarığı, fikirlərini sərbəst ifadə etmək bacarığı, həyatında tətbiq edə biləcək riyazi bacarıqları, öz fikirlərini yazıya alma bacarığı, hadisələri dərk edərək onları təsvir etmək bacarığı, informasiya texnologiyalarından istifadə etmək bacarığı, təbiətə qarşı qoruyucu olmaq, başqalarına qarşı humanist olmaq və bir sıra başqa bacarıqlar formalaşır ki, bu da ibtidai təhsilin son mərhələsində kiçik yaşlı məktəblilər üçün ən zəruri bacarıqlardır.

İbtidai təhsildə yaradıcı fəaliyyətin psixoloji əsası qoyulur. Fantaziya və təxəyyül, yaradıcı təfəkkür inkişaf etdirilir, maraq

tərbiyə olunur, müşahidə və təhlil etmək, müqayisə aparmaq, faktları ümumiləşdirmək, nəticə çıxartmaq bacarıqları formalaşır.

İbtidai sinif şagirdlərində təhlükəsiz davranış bacarıqlarının formalaşdırılması modelinin həyata keçirilməsi istiqamətini də vurğulamaq yerinə düşərdi. Bu zaman onların sağlam həyat tərzi və təhlükəsizlik qaydalarından real həyatda istifadə etməyə hazır olmaq vasitəsilə təhlükəsizliyə olan tələbatı inkişaf edəcək ki, bu da şagirdlərdə bacarıqların formalaşmasına səbəb olacaqdır.

Təlim prosesi zamanı şagirdlərdə bir sıra zəruri həyati bacarıqların qazandırılması və həmin bacarıqların inkişaf etdirilərək formalaşdırılması vacib sayılır. Məhz bu baxımdan, fənlərin tədrisində belə bacarıqların aşılanmasını həyata keçirmək lazım gəlir.

İbtidai siniflərdə tədris olunan Həyat bilgisi fənni də məhz şagirdlərdə həyati bacarıqların formalaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Buna görə də ibtidai sinif müəllimləri tərəfindən Həyat bilgisi fənninin tədrisi prosesində göstərilən prinsiplərə istinad etməklə şagirdlərin həyati bacarıqlarının formalaşdırılması ilə bağlı yeni iş modelinin hazırlanması ön plana çəkilməlidir. Yeni iş modelinin hazırlanması mühüm aktuallıq kəsb etdiyi üçün onun hazırlanaraq ibtidai sinif müəllimlərinə elmi - pedaqoji, metodik cəhətdən istiqamət verilməsi vacib sayılır.

Fənlərin tədrisi prosesində ibtidai sinif şagirdlərinin həyati bacarıqlarının formalaşdırılması ilə bağlı kurikuluma dair müxtəlif sənədlərdə tövsiyələrin verilməsi və elmi-pedaqoji müddəaların irəli sürülməsi tədqiqat probleminin aktuallığını əsaslandıran cəhətlərdən biridir. Milli Kurikuluma dair həmin sənədlərdə göstərilir ki, humanitar fənlərin tədrisi prosesində, eyni zamanda Həyat bilgisi dərslərində də ən zəngin həyati bacarıqların aşılanması hər hansı bir mövzunun şagirdlərə faydalı şəkildə öyrədilməsi zamanı da həyata keçirilə bilər. Çünki həyati bacarıqları qazanan ibtidai sinif şagirdləri gələcəkdə xalq təsərrüfatının müxtəlif sahələri üzrə hər tərəfli biliyə sahib olan mütəxəssislər kimi yetişdirilməklə yanaşı, öz ölkələrinin gələcəyini hərtərəfli inkişaf etdirməyə qadir olan vətəndaşlar, şəxsiyyətlər kimi formalaşırlar.

Dissertasiya mövzusunun elmi-pedaqoji və metodik ədəbiyyatda qoyuluşuna nəzər yetirdikdə aydın olur ki, həqiqətən də

bu problem üzrə aparılan tədqiqatlar ümumi pedaqogikanın və təhsilin tarixi istiqamətinə uyğun tərzdə aparılan tədqiqatlardır. Yəni, Həyat bilgisinin tədrisi ilə bağlı aparılan tədqiqatların böyük əksəriyyəti bu fənnin tədrisində tərbiyə məsələlərinə həsr olunmuşdur. Həyat bilgisinin tədrisində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması metodikası üzrə tədqiqatlar aparılmamışdır. Başqa sözlə desək, bu problem ətrafında aparılan tədqiqatların heç birisi təlim-tərbiyənin nəzəriyyəsi və metodikası, yəni həyat bilgisinin tədrisi metodikası üzrə problemə həsr edilməmişdir. Bu səpgidə aparılan tədqiqatların bir qismi məqalələr şəklində dərc olunmuş, bir qismi metodik ədəbiyyat formasında çap etdirilmişdir. Pedaqoji ədəbiyyatda şagirdlərin bilik, bacarıq və vərdişlərinin formalaşdırılması ilə bağlı çoxsaylı əsərlər də yazılmışdır. Eləcə də, fənlərin tədrisində şagirdlərə bir sıra bacarıqların aşılanması ilə əlaqədar çoxsaylı tədqiqatlar aparılaraq məqalələr, kitablar və dissertasiyalar hazırlanmışdır. Bir çox görkəmli pedaqoqlar, psixoloqlar, metodist alimlər öz əsərlərində şagirdlərə zəruri bacarıqların aşılanması ilə bağlı dəyərli ideyalar, elmi müddəalar irəli sürsələr də, onların heç biri həyat bilgisi dərslərində ibtidai sinif şagirdlərinin həyati bacarıqlarının formalaşdırılması ilə bağlı elmi-tədqiqat əsərləri yazmamışlar. Bütün bunları nəzərə alaraq biz dissertasiya işini "Həyat bilgisi fənninin tədrisində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması" mövzusunda müəyyənləşdirdik.

**Tədqiqatın obyekti.** Tədqiqatın *obyekti* ibtidai siniflərdə həyat bilgisi fənninin tədrisində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması prosesidir.

**Tədqiqatın predmeti.** Tədqiqatın *predmeti* isə ibtidai siniflərdə həyat bilgisi fənninin tədrisində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması işinin imkan və yollarıdır.

**Tədqiqatın məqsədi.** Həyat bilgisi fənninin tədrisi prosesində ibtidai sinif şagirdlərinin həyati bacarıqlarının formalaşdırılması işinin imkanlarını və onlardan istifadənin səmərəli yollarını müəyyənləşdirmək, bu sahədə yeni metodika yaratmaq tədqiqatın əsas *məqsədində* öz əksini tapır.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın məqsədinə uyğun olaraq aşağıdakı *vəzifələrin* həyata keçirilməsi məqsədəuyğun sayılır:

- Həyat bilgisi dərslərində şagirdlərə həyati bacarıqların aşılanması işinin mahiyyəti, məzmunu, məqsəd və vəzifələrini müfəssəl şəkildə öyrənmək;
- Problemin mahiyyət və məzmununu aydınlaşdırmaq;
- Problemin ədəbiyyatda qoyuluşunu öyrənib ümumiləşdirmək;
- Problemin məktəb təcrübəsindəki qoyuluşunu öyrənib ümumiləşdirmək;
- Problemin pedaqoji-psixoloji və metodik əsaslarını öyrənmək;
- Həyat bilgisinin tədrisi prosesində sagirdlərə həyati bacarıqların aşılanması işinin didaktik mahiyyətini müəyyənləşdirmək;
- Həyati bacarıqların aşılanması üçün ibtidai siniflərdə fəal dərsin təşkili metodikasını müəyyənləşdirmək;
- İşçi fərziyyənin doğruluğunu sübuta yetirmək məqsədilə Həyat bilgisi fənninin tədrisində şagirdlərin həyati bacarıqlarının inkişaf etdirilərək formalaşdırılmasını dərsin təşkili zamanı pedaqoji eksperiment vasitəsilə müəyyənləşdirmək.

**Tədqiqatın fərziyyəsi**. Həyat bilgisi fənninin tədrisində ibtidai sinif şagirdlərinin həyati bacarıqlarının inkişaf etdirilərək formalaşdırılması dərsin təşkilində həm məqsədyönlü, həm planlı və həm də mütəşəkkil olaraq həyata keçirilə bilər. Bu baxımdan birinci-dördüncü siniflərdə mədəni dəyərlər, tarixi dəyərlər, milli-mənəvi dəyərlər, o cümlədən dövlətimiz, hüquqlarımız, vəzifələrimiz, mənəvi dünyamız, sağlamlığımız, təhlükəsizliyimiz və bu kimi digər mövzuların tədrisi metodikası üçün nümunəvi dərs modelləri hazırlansın.

**Tədqiqatın metodoloji əsasını** fakt və hadisələrə dialektik yanaşma yolu ilə aparılan araşdırmalar, həyat bilgisi dərslərinin təşkilində şagirdlərdə həyati bacarıqların aşılanması ilə bağlı elmi-nəzəri fikirlər və təhsil islahatlarına dair direktiv sənədlər təşkil edir.

**Tədqiqatın metodları:**

1) *Elmi, pedaqoji və metodik ədəbiyyatın öyrənilməsi:* Tədqiq etdiyimiz problemlə bağlı Azərbaycan Dövlətinin direktiv

sənədlərinin, yeni təhsil qanununun, məktəb haqqında qərar və göstərişlərin, fənn proqramlarının və eləcə də həyat bilgisi dərslərinin öyrənilməsi.

2) *Şagirdlərin yaradıcılıq məhsullarının öyrənilməsi:* Bu zaman ibtidai siniflərdə tədris olunan həyat bilgisi dərslərinin, məşğələlərinin, yaradıcılıq məhsullarının öyrənilməsi nəzərdə tutulmuş, Naxçıvan Muxtar Respublikasının bir sıra şəhər və kənd məktəblərində bu fənni tədris edən fənn müəllimlərinin tədris proqramları araşdırılmış, təhlil edilmişdir.

3) *Pedaqoji müşahidə*: İbtidai siniflərdə həyat bilgisinin tədrisi ilə məşğul olan sinif müəlliminin dərslərində, eləcə də həyat bilgisinin digər fənlər ilə əlaqəsi olan Azərbaycan dili, Musiqi və Təsviri incəsənət dərslərində müşahidələr aparılmışdır.

4) *Pedaqoji müsahibə:* İbtidai siniflərdə həyat bilgisi fənnini tədrisi ilə məşğul olan sinif müəllimləri ilə müsahibələr aparılmışdır. Muxtar Respublikanın şəhər və kənd məktəblərində ibtidai sinif müəllimləri ilə müsahibələr təşkil edilmişdir.

5) *Pedaqoji eksperiment*: Tədqiqat problemi ilə bağlı pedaqoji eksperiment 3 mərhələdən ibarət olmaqla həyata keçirilmişdir. Eksperimentin birinci-müəyyənedici mərhələsində ibtidai siniflərdə həyat bilgisinin tədrisində şagirdlərə həyati bacarıqların aşılanması işinin vəziyyəti öyrənilmiş və bu işin məqsədyönlü, planlı və mütəşəkkil olaraq həyata keçirilməməsi müəyyənləşdirilərək ümumiləşdirilmişdir. Eksperimentin ikinci öyrədici mərhələsində həyat bilgisi dərslərində şagirdlərə həyati bacarıqların aşılanması metodikası ilə bağlı öyrədici materiallar hazırlanmış və nümunəvi iş modeli tətbiq edilmişdir. Eksperimentin üçüncü yoxlayıcı mərhələsində həyat bilgisi dərslərində şagirdlərin həyati bacarıqların aşılanması ilə bağlı hazırlanan metodikanın səmərəsi yoxlanılmış, alınan nəticələr müvafiq cədvəllərdə əks etdirilmişdir.

6) *Riyazi statiskika:* Pedaqoji eksperiment zamanı kontrol və eksperimental siniflərdən alınan nəticələr, həmin nəticələrin cavabları yekunlaşdırılmış və təqdim edilən metoddan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Həyat bilgisi fənninin tədrisində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması, onların tarixi dəyərlər, mədəni dəyərlər, milli-mənəvi dəyərlər haqqında biliklərini dərinləşdirir;
- Həyat bilgisi dərslərində şagirdlərin həyati bacarıqlarının aşılanması şagirdləri təbiətin, cəmiyyətin, idrakın və eləcə də xalq təsərrüfatının müxtəlif sahələri ilə bağlı sirləri ilə yaxından tanış etməklə, onların elmi dünyagörüşlərini formalaşdırır;
- Həyat bilgisi fənninin tədrisi zamanı şagirdlərin həyati bacarıqlarının formalaşdırılması onları gələcək müstəqil həyata hazırlayır;
- Həyat bilgisi dərslərində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması onların şəxsiyyətyönümlülük səviyyələrini yüksəltməklə, estetik və bədii zövqlərini inkişaf etdirir.

**Tədqiqatın elmi yeniliyi**. İlk dəfə olaraq həyat bilgisi fənninin tədrisi prosesində şagirdlərə həyati bacarıqların aşılanması ilə bağlı metodika hazırlanmışdır. Bu metodikanı Azərbaycan Respublikasının pedaqoji fikir tarixində ilkin metodika kimi və Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində tətbiq olunan yeni pedaqoji texnologiya kimi dəyərləndirmək olar.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqat zamanı həyat bilgisi fənninin tədrisində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması işinin nəzəri əsasları işlənilmiş, hazırlanan yeni metodika nəzəri cəhətdən əsaslandırılmış, həmin metodikanın elmi müddəaları, elmi ideyaları müəyyənləşdirilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Ölkəmizdə və Naxçıvan Muxtar Respublikasında ibtidai siniflərdə həyat bilgisi fənninin tədrisi prosesində şagirdlərə həyati bacarıqların aşılanması ilə bağlı yeni və müasir tələblərə cavab verən iş modeli hazırlanaraq təqdim olunmuşdur. İbtidai sinif müəllimlərinə düzgün istiqamət vermək baxımından mühüm praktik əhəmiyyət kəsb edən iş modelinin yeni texnologiya nümunəsi kimi tətbiqi zəruri olacaqdır.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu 23 sentyabr 2016-cı il tarixli Naxçıvan Dövlət Universiteti Elmi Şurasının iclasında (protokol № 1) və 28 iyun 2016-cı il tarixli Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şuranın iclasında (2№- li protokol) təsdiq olunmuşdur.

Tədqiqatın nəticələri barədə məruzələr beynəlxalq və respublika səviyyəli konfranslarda 10 məqalə və tezis olmaqla (3-ü xaricdə) müzakirə edilmiş, AAK-ın tövsiyə etdiyi elmi jurnallarda 8 elmi məqalə (2-si xaricdə) nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat** Naxçıvan Dövlət Universitetinin "Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi" kafedrasıdır.

**Tədqiqatın struktur və həcmi.** Dissertasiya işində giriş 10 səhifə - 18909 işarə, I fəsil 67 səhifə - 124904 işarə (cədvəllər istisna olmaqla), II fəsil 48 səhifə- 86226 işarə (cədvəllər istisna olmaqla), nəticə və təkliflər 3 səhifə - 4965 işarə, istifadə edilmiş ədəbiyyat 14 səhifə – 20800 işarə, işin ümumi həcmi isə 142 səhifədən və - 235223 işarədən (istifadə edilən ədəbiyyat siyahısı istisna olmaqla) ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində tədqiqatın aktuallığı əsaslandırılır. Tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri ətraflı şərh olunur. Tədqiqatın nəzəri və metodoloji əsasları, elmi yeniliyi, praktik əhəmiyyəti, müdafiəyə çıxarılan məsələlər, fərziyyə və aprobasiyası haqqında elmi izahlar və məlumatlar verilir.

Dissertasiyanın birinci fəsli **"Həyat bilgisi dərslərində şagirdlərə həyati bacarıqların aşılanması işinin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri"** adlanır ki, bu fəsil dörd paraqrafdan ibarətdir .

Dissertasiyanın birinci fəslinin **"Problemin mahiyyəti, məzmunu"** adlanan I paraqrafında Həyat bilgisi fənninin tədrisində şagirdlərdə həyati bacarıqların formalaşdırılması məsələsində problemli stiuasiyanın yaradılması, problemin mahiyyət və məzmununa aydınlıq gətirilmişdir.

Həyat bilgisi fənninin tədrisi prosesində hər hansı mövzunun öyrədilməsi, müvafiq mövzular üzərində iş aparılması zamanı şagirdlərin hər birinə həyati bacarıqların aşılanması üçün geniş imkanlar verir. Təsadüfi deyil ki, Milli Təhsil Konsepsiyasında orta

ümumtəhsil məktəblərində Həyati bacarıqlara əsaslanan təhsilin məzmununun yaradılması vacib sayılmışdır. Bu istiqamətdə görülən işlərdən biri *"Davamlı inkişaf üçün Təhsil" konsepsiyasının*[1] prinsiplərinə uyğun olaraq şagirdlərə biliklərin əsaslarını öyrədərkən onlara həyati bacarıqların aşılanması üçün yeni pedaqoji innovasiyalar layihəsi hazırlanması vacib hesab edilmişdir.

Həyat bilgisi fənni müstəqillik illərindən etibarən ümumtəhsil fənləri sırasına daxil edilmişdir. Bu fənnin tədrisi prosesində şagirdlərə biliklərin əsaslarının öyrədilməsi zamanı onlara həyati bacarıqların aşılanmasında həm geniş imkanların verilməsi, həm də metodik yanaşmalar üçün didaktik materiallarla tədris öz əksini tapmışdır. Hansı ki, həmin didaktik materialların fəal dərsin düzgün təşkili zamanı şagirdlərə mərhələlər üzrə çatdırılması onların həyati bacarıqlarının aşkara çıxarılmasına zəmin yaratmış olur. Bunun üçün isə ilk növbədə fəal dərsin maraqlı qurulması üçün kreativ metodikalar modeli yaratmaq lazım gəlir. Kreativ metodikalar isə fəal təlimin həyata keçirilməsi yollarının düzgün müəyyənləşdirilməsindən başlayır.

Həyat bilgisi dərslərində şagirdlərin həyati bacarıqlara yiyələnmələrinə istiqamət verən metodikalardan biri də psixoloji dəstək hesab olunur. Psixoloji dəstək metodu ilə hər hansı bir mövzunun tədrisində şagirdlərə ən zəruri həyati bacarıqları aşılamaq mümkündür. İstər hörmət etməyin, istərsə də etibar qazanmağın bir çox komponentləri ilə bağlı həyati bacarıqların da aşılanması bu baxımdan faydalı hesab olunur.

Həyat bilgisi dərslərində fəal dərsin mərhələlər üzrə həyata keçirilməsi şagirdlərə həyati bacarıqların aşılanması və formalaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Mövzuların həyati bacarıqlar aşılayan tərəflərini fəal dərsin ayrı-ayrı mərhələlərində məqsədyönlü və planlı şəkildə təhlilə cəlb etmək xüsusilə vacibdir. Bunun üçün fəal dərsin bütün mərhələlərində

[1] Həyati bacarıqlara əsaslanan təhsil. (Orta ümumtəhsil məktəblərinin ibtidai sinif müəllimləri üçün tədris vəsaiti) / H.M. Hacıyeva, Z.Y. Musayeva, Z.Z. Əhmədova [və b.].- Bakı: Mütərcim, -2009.- 496 s., 4.səh.

ibtidai sinif müəllimləri məqsədyönlü, mütəşəkkil, planlı olaraq iş aparmalıdırlar.

**"Həyat bilgisi dərslərində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması probleminin elmi-pedaqoji və metodik ədəbiyyatda qoyuluşu"** adlanan ikinci paraqrafda şagirdlərin həyati bacarıqlarının formalaşdırılması problemini Həyat bilgisi dərslərində daha dərindən araşdırılaraq öyrənilməsi üçün həmin problemi həm elmi-pedaqoji və metodik ədəbiyyatda qoyuluşuna nəzər yetirməyi, həm də müəyyən təhlillər və ümumiləşdirmələr apararaq ədəbiyyatdakı vəziyyətini öyrənməyi qarşıya məqsəd qoyduq.

Biz problemə dair tədris proqramlarını, dərslikləri, dərs vəsaitlərini, monoqrafiyaları, dissertasiyaları, avtoreferatları və bir sıra jurnal məqalələrini nəzərdən keçirib təhlil edərək problemin ədəbiyyatda qoyuluşunun vəziyyətini öyrənməyi məqsədəuyğun hesab etdik.

Aydın oldu ki, ölkəmizdə müstəqillik qazandığımız dövrlərə qədər bu problemlə bağlı hazırlanan proqram materialları, dərs vəsaitləri, dərsliklər, avtoreferatlar, monoqrafiyalar, elmi məqalələr olmamışdır. Yalnız təqdim olunan tədqiqat işimizin probleminə yaxın olan mövzular araşdırılmışdır. Başqa sözlə ifadə etməli olsaq, Həyat bilgisi fənni müstəqillik dövrünə qədər ümumtəhsil məktəblərimizdə tədris olunmadığı üçün şagirdlərə həyati bacarıqları aşılamağa xidmət edən digər fənlərin tədrisində yalnız metodik göstərişlər, elmi-pedaqoji yanaşmalar və bir sıra tövsiyə və məsləhətlər mövcuddur.

Müstəqillik dövrünəqədərki elmi-pedaqoji ədəbiyyatları araşdırarkən tədqiq etdiyimiz problemə yaxın olan təbiətşünaslıq, ekologiya, ekoloji mühit, ekoloji tərbiyə problemləri ilə bağlı hazırlanan elmi-pedaqoji ədəbiyyat nümunələrində şagirdlərin həyati bacarıqlarının formalaşdırılmasının metodikası ilə əlaqədar epizodik xarakter daşıyan cəhdlər olmuşdur.

Ekoloji tərbiyə sahəsində hazırlanan dissertasiya əsərlərində də şagirdlərə həyati bacarıqların aşılanması ilə bağlı epizodik şərhlərə rast gəlmək mümkündür. Müstəqillik dövründə Həyat bilgisi

fənninin tədrisi ilə bağlı şagirdlərin müxtəlif bacarıqlar qazanması ilə əlaqədar tədqiqatların əksəriyyəti demək olar ki, ekoloji tərbiyə elementləri ilə məhdudlaşdırılır. Məsələn, Sevda Xaspoladovanın "*Sağlam həyat tərzinə dair dəyərlərin formalaşdırılmasında müəllimin əsas kompotensiyaları*"[2] adlı məqaləsində şagirdlərə sağlam həyat tərzi ilə bağlı bacarıqların aşılanmasına epizodik şəkildə toxunmuşdur. Halbuki müəllif şagirdlərdə sağlam həyat tərzini formalaşdırmağa xidmət edən dəyərlərin, onların həyati bacarıqlarının aşkara çıxarılmasına təsiri imkanlarını da tədqiqata daxil etmiş olardı.

Kurikulum təlimi ilə bağlı materiallar ölkəmizin ümumtəhsil məktəblərində də araşdırılır. Belə ki, ibtidai sinif şagirdlərinə həyati bacarıqlar aşılamaq üçün kurikulum təlimi materiallarında istənilən qədər metodik göstərişlər, elmi-pedaqoji ideyalar və istiqamətlər vardır. Lakin bu metodik istiqamət və göstərişlərdə, elmi-pedaqoji ideyalarda həyat bilgisi dərslərində şagirdlərdə həyati bacarıqların aşılanması yolları haqqında heç bir məlumat yoxdur. Doğrudur, müvafiq bacarıqları aşılamaq üçün tələbyönümlülük, şəxsiyyətyönümlülük, nəticəyönümlülük prinsiplərindən istifadə etməyin məqsədləri və vəzifələri açıqlanır. Lakin şagirdlərə həyati bacarıqların aşılanması yolları bu prinsiplərə istinad etməklə göstərilmir. Sadəcə, göstərilən prinsiplərə istinad etməyin yolları metodik ədəbiyyatları nəzərdən keçirərkən ümumi şəkildə təsvir olunur.

Kurikulum təliminə dair tədris mərkəzi tərəfindən 2019-cu ildə nəşr olunan müəllifi Əminə Bağırova olan "Pedaqogika" adlı metodik ədəbiyyatda da şagirdlərə həyati bacarıqların aşılanması ilə bağlı müvafiq elmi-pedaqoji fikirlərə rast gəlinir. Məsələn, müəllifin şagirdlərə qazandırılması zəruri sayılan bir sıra qabiliyyətlərin məzmunu açıqlanır. Bu qabiliyyətlər içərisində akademik qabiliyyətlər, didaktik, konstruktiv (kominikativ), qabiliyyətlər, təşkilatçılıq qabiliyyətləri, perspektiv qabiliyyətlər, suqqestiv

---

[2] Xaspoladova, S.Ə. "Sağlam həyat tərzinə dair dəyərlərin formalaşdırılmasında müəllimin əsas kompotensiyaları // - Bakı: "Pedaqogika" jurnalı, - 2017. №3, - s. 82-95.

qabiliyyətlər, tədqiqatçılıq və eksperessiv qabiliyyətlər xüsusi yer tutur. Müəllifə görə akademik qabiliyyətlər bir başa müxtəlif elm sahələri ilə balı olan qabiliyyətlərdir. Doğrudur, müəllif pedaqoji elmlər sahəsində şagirdlərə akademik qabiliyyətlərin qazandırılmasını məqbul hesab edir. Lakin bu qabiliyyətlərin fənlərin tədrisində, o cümlədən həyat bilgisinin tədrisində şagirdlərə həyati bacarıqlar qazandıran qabiliyyətlər kimi təqdim olunmur.

Pedaqoq alim Ləzifə Qasımova və Rəhimə Mahmudovanın hazırladıqları "Pedaqogika" adlı dərsliklərində göstərilir ki, *"Bacarıqlar bilikləri tətbiq edə bilməkdir. Ümumiyyətlə, bacarıq dedikdə hər hansı bir fəaliyyəti yerinə yetirməki üçün lazımi vasitə, tərz, üsul və qaydaların seçilməsi və tətbiqi edilməsi başa düşülür. Biliyə yiyələnmək hələ bacarıq əldə etmək deyil. Məsələn, şagird riyazi formulları bilmiş olar, amma onu tətbiq etməyi bacarmaya da bilər. Əlbəttə, bacarıq biliyə əsaslanır, ondan törəyir. Məktəbdə şagirdlər çoxlu bacarıqlar əldə edirlər. Bunlar içərisində ən mühümü təlim və əmək bacarıqlarıdır. İnşa yazmaq, məsələ həll etmək, cədvəl tərtib etmək, mətnin planını qurmaq və s. təlim bacarıqlarıdır. Məktəb emalatxanasında işləmək, bitki yetişdirmək, tikiş əməliyyatlarını yeinə yetirmək isə əmək bacarıqları ilə bağlıdır. İstər təlim, istərsə də əmək bacarıqları biliklərə əsaslansa da, sonradan özləri biliklərin dəqiqləşdirilməsinə, dərinləşdirilib möhkəmləşdirilməsinə kömək edirlər".*[3] Dərslikdə bacarıqlar təlim bacarıqları və əmək prosesi zamanı qazanılan bacarıqlar kimi diqqətə çatdırılır. Bu yaxşı haldır. Lakin burada həyati bacarıqlara istinad olunmaması yaxşı hal kimi qəbul edilə bilməz.

Problemlə bağlı mövcud ədəbiyyatı təhlil etməyi planlaşdırarkən Həyat bilgisi dərsliklərində şagirdlərə həyati bacarıqların aşılanması ilə bağlı elmi, pedaqoji, metodik göstərişlərin hansı səviyyədə olması, I, II, III, IV sinif şagirdlərinə hansı həyati bacarıqların aşılanmasının zəruriliyi, şagirdlərə həyati bacarıqların aşılanması metodikası ilə əlaqədar hansı göstərişlərin olması və bu kimi digər məsələlərin Azərbaycan Respublikasının Təhsil Nazirliyi

---

[3] Qasımova, L.N. Pedaqogika (Dərslik) / L.N. Qasımova, R.M. Mahmudova. - Bakı: Çaşıoğlu, - 2012. - 548 s.

tərəfindən təsdiq olunmuş proqram əsasında I-IV siniflər üçün çap olunan və istifadəyə verilən dərsliklərdə necə yer tutmasını araşdırdıq və nəzərdən keçirtdik. Məlum oldu ki, adı çəkilən dərsliklərdə şagirdlərə həyati bacarıqların aşılanması ilə bağlı heç bir metodik istiqamətlərin verilməsi nəzərdə tutulmamışdır.

Fikrimizi ümumiləşdirərək qeyd etməliyik ki, problemin elmi, pedaqoji, metodik ədəbiyyatdakı qoyuluşu öz əksini tapmadığı üçün bu problemin ətraflı tədqiqini həyata keçirmək lazım gəlir.

Üçüncü paraqraf **"Həyat bilgisi dərslərində şagirdlərdə həyati bacarıqların formalaşdırılması probleminin məktəb təcrübəsində qoyuluşu"** adlanır. Bu paraqrafda göstərilir ki, tədqiqat planına uyğun olaraq problemin elmi –pedaqoji və metodik ədəbiyyatda qoyuluşunu öyrəndikdən sonra məlum oldu ki, orta ümumtəhsil məktəblərimizin ibtidai siniflərində şagirdlərdə həyati bacarıqların formalaşdırılması probleminə dair yazılı materiallar çox azdır. "Çox azdır" ifadəsini biz şərti olaraq işlədirik. Məsələyə həqiqi mənada qiymət versək deməliyik ki, ibtidai siniflərdə tədris olunan Həyat bilgisi fənni ilə bağlı araşdırmalar az aparıldığından, tədqiqatlar kifayət qədər aparılmadığından fənnin tədrisində şagirdlərə həyati bacarıqların aşılanması ilə bağlı metodik ədəbiyyatın qıtlığı yaxşı hal sayıla bilməz. Həyat bilgisi fənninin tədrisi ilə bağlı aparılan tədqiqatlar əsasən tərbiyənin ayrı-ayrı tərkib hissələrinə aid edilmiş, şagirdlərin həyati bacarıqlarının formalaşdırılması problemi nəzərə alınmamışdır. Məhz ona görə də bu sahədə ədəbiyyat qıtlığını aradan qaldırmaq və ibtidai sinif müəllimlərinə bu problemlə bağlı elmi, pedaqoji, metodik istiqamət vermək məqsədilə Həyat bilgisi fənninin tədrisində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması probleminin geniş miqyasda tədqiqini məqsədəuyğun hesab etdik. Problemin bütün tərəflərini öyrənmək məqsədilə onun məktəbdə, yəni məktəb təcrübəsində qoyuluşuna da nəzər yetirməyi qərara aldıq. Qabaqcadan müəyyənləşdirdiyimiz tədqiqat planının tələblərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin təcrübəsi əsasında problemin məktəb təcrübəsindəki qoyuluşunu öyrənməyi məqsədəmüvafiq hesab etdik. Bunun üçün Naxçıvan Muxtar Respublikasının şəhər məktəbləri ilə yanaşı, kənd

məktəblərində də müşahidələr və araşdırmalar apardıq. Müqayisə üçün pedaqoji eksperimentin müəyyənedici, öyrədici və yoxlayıcı mərhələləri üzrə apardığımız işlərin həm kənd, həm də şəhər məktəblərində həyata keçirilməsini planlaşdırdıq.

Muxtar Respublikanın şəhər məktəblərində həyati bacarıqların formalaşdırılması ilə bağlı ümumi vəziyyəti öyrənmək, məktəb təcrübəsi ilə yaxından tanış olmaq məqsədilə Naxçıvan şəhərinin 1, 2, 4, 5, 7, 8, 11, 12 və Heydər Əliyev adına tam orta məktəblərində müşahidələr apardıq. Şagirdlərə həyati bacarıqlar aşılamaq üçün onların sosial mühitdə qazandıqlarının əvvəlcə aşkara çıxarılması, təlim prosesində isə inkişaf etdirilərək formalaşdırılması elmi-pedaqoji və metodik cəhətdən mühüm əhəmiyyət kəsb edir. Məktəb təcrübəsində də şagirdlərə bu xüsusda yanaşılmasına ehtiyac duyulur. Təəssüf ki, Naxçıvan Muxtar Respublikasının orta ümumtəhsil məktəblərində, o cümlədən şəhər məktəblərində çalışan ibtidai sinif müəllimləri problemin belə həllində çətinlik çəkirlər.

Naxçıvan Muxtar Respublikasının kənd məktəblərində də haqqında danışılan problemin qoyuluşu vəziyyətini öyrənmək üçün müşahidələr apardıq. Belə ki, Babək rayonunun Kültəpə, Sirab, Qahab, Ordubad rayonun Gilançay, Culfa rayonunun Yaycı, Bənəniyar, Kəngərli rayonunun Qarabağlar, Xok, Qıvraq kəndlərindəki tam orta məktəblərdə Həyat bilgisi dərslərini dinlədik. Aydın oldu ki, adı çəkilən kənd məktəblərində Həyat bilgisi dərsləri cədvəl üzrə təşkil olunur, dərslər mərhələlər üzrə aparılır, mövzuların aydınlaşdırılmasına ciddi cəhd göstərilir. Lakin I-IV siniflərdə həyat bilgisinin tədrisi ibtidai sinif müəllimlərinin şagirdlərin həyati bacarıqlarının aşkar edilməsi, inkişaf etdirilməsi və formalaşdırılması məsələsində çətinlik çəkirlər. Bunun isə başlıca səbəbi ibtidai sinif müəllimlərinə bu sahədə istiqamət verən elmi, pedaqoji və metodik ədəbiyyatların yoxluğudur. Şagirdlərə həyati bacarıqların aşılanması ilə bağlı elmi, pedaqoji ədəbiyyatların, metodik göstərişlərin, didaktik materialların olmaması səbəbindən müşahidə apardığımız şəhər və kənd məktəblərində şagirdlərdə həyati bacarıqların formalaşdırılması ilə bağlı məqsədyönlü və planlı işlər həyata keçirilmir. Fikrimizcə, ümumtəhsil məktəblərində apadığımız tədqiqatın nəticəsi olaraq qeyd edə bilərik ki, aparılan işlərin əmək

bacarıqları, fəaliyyət bacarıqları və digər fəaliyyət bacarıqları ilə əlaqələndirilməsi faydalı hesab edilsə də dinlədiyimiz dərslərdə bunları müşahidə etmədik.

Dördüncü paraqraf **“Problemin pedaqoji-psixoloji və metodik əsasları”** adlanır. Bu paraqrafda Həyat bilgisi fənninin tədrisi prosesində şagirdlərdə həyati bacarıqların formalaşdırılması probleminin hərtərəfli həll olunması üçün onun həm elmi-pedaqoji əsaslarının, həm psixoloji əsaslarının, həm də metodik əsaslarının ətraflı öyrənilməsinə ehtiyac duyulur. Həyat bilgisi dərslərində şagirdlərdə həyati bacarıqların formalaşdırılması işinin pedaqoji əsaslarının əsasən iki istiqamət üzrə öyrənilməsi nəzərdə tutulur. Birincisi, həyat bilgisi fənninin tədrisi prosesində müvafiq prinsiplərə istinad etməklə şagirdlərin həyati bacarıqlarının formalaşdırılması, ikincisi, həyat bilgisi fənninin tədrisi prosesində müasir təlim metodlarından istifadə etməklə şagirdlərin həyati bacarıqlarının formalaşdırılmasının həyata keçirilməsi.

Birinci istiqamət üzrə işləri həyata keçirərkən təlimin ümumpedaqoji prinsiplərinə istinad etməyin əhəmiyyəti çoxdur. Ona görə ki, həyat bilgisi dərslərində hər hansı mövzunun tədrisi prosesində konkret təlim prinsipinə istinad etməklə şagirdlərin həyati bacarıqlarının formalaşdırılmasında nailiyyət qazanmaq mümkündür. Bunun üçün ibtidai sinif müəllimləri həyat bilgisi dərslərində mövzuların tədrisi zamanı təlimin hansı prinsiplərindən istifadə etməyin zəruri olduğunu düzgün müəyyənləşdirməlidirlər.

Şagirdlərə həyati bacarıqların aşılanması işində təlim üsullarından da istifadə etmək faydalı sayılır. Bunun üçün ibtidai sinif müəllimlərinin təlim üsulları ilə bağlı pedaqoji ədəbiyyatda mövcud olan elmi ideyalar toplusundan bəhrələnməsi zəruri sayılır.

Həyat bilgisi dərslərində kiçikyaşlı məktəblilərin həyati bacarıqlarının formalaşdırılması işində interaktiv təlim metodlarından da geniş istifadə etmək lazım gəlir. İnteraktiv təlim metodlarından səmərəli istifadə edən zaman şagirdlərdə həyati bacarıqların formalaşdırılmasına müsbət təsir göstərən bir sıra keyfiyyətlər müşahidə olunur. Yəni interaktiv təlim metodlarının tətbiq edildiyi prosesdə şagirdlərdə müstəqil düşünmə bacarığı,

əməkdaşlıq bacarığı, özünüqiymətləndirmə, özünütəhlil bacarığı, dözümlülük kimi keyfiyyətləri aşılamaq mümkün olur.

Həyat bilgisi dərslərində ibtidai sinif şagirdlərinin həyati bacarıqlarının formalaşdırılması ilə bağlı həyata keçirilən işlərin pedaqoji əsasları ilə yanaşı, psixoloji əsaslarının da öyrənilməsi, haqqında danışdığımız problemin həlli baxımından mühüm əhəmiyyət malikdir. Çünki ibtidai sinif şagirdlərinə həyati bacarıqların aşılanması, onlara psixoloji cəhətdən düzgün yanaşılmaqla həyata keçirilə bilər.

Təcrübə və müşahidələr göstərir ki,orta ümumtəhsil məktəblərində həyat bilgisini tədris edən ibtidai sinif müəllimləri şagirdlərin həyati bacarıqlarının formalaşdırılması işində məsələnin pedaqoj-psixoloji əsaslarının müəyyənləşdirilməsində çətinlik çəkirlər. Ona görə biz paraqrafda ibtidai sinif müəllimlərinə həyat bilgisi fənninin tədrisi zamanı şagirdlərə həyati bacarıqların aşılanması işinin pedaqoji-psixoloji əsaslarının öyrədilməsi ilə bağlı metodik istiqamət verməyi məqsədəmüvafiq hesab etdik.

Dissertasiyanın ikinci fəsli **“Həyat bilgisi fənninin tədrisi prosesində ibtidai sinif şagirdlərinə həyati bacarıqların aşılanması işinin didaktik əsasları”** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir. **“Həyat bilgisi fənninin tədrisi prosesində şagirdlərə həyati bacarıqların aşılanması işinin didaktik mahiyyəti”** adlanan birinci paraqrafda göstərilir ki, Həyat bilgisi fənninin tədrisi zamanı şagirdlərə ən zəruri həyati bacarıqları aşılamaqdan ötrü bu işin didaktik əsaslarının müəyyənləşdirilməsinə zəruri ehtiyac duyulur. Həyat bilgisinin tədrisi prosesində şagirdlərə həyati bacarıqları aşılamaqdan ötrü zəruri sayılan ən mühüm didaktik əsaslardan biri didaktik oyunların məqsədyönlü, planlı və mütəşəkkil olaraq təşkil edilməsi hesab olunur. Oyunlar vasitəsi ilə şagirdlərə verilən biliklər, onlara aşılanan həyati bacarıqlar, onların elmi dünyagörüşünü, intellektual səviyyələrini, şəxsiyyətyönümlü inkişafını təmin etmiş olur.

Kurikulum təlimi üzrə direktiv sənədlərdə oyunların təşkilinə üstünlük verilməsi də mühüm aktuallıq kəsb edir. Kurikulum materiallarında rollu oyunların təşkili zamanı şagirdlərin həyata

münasibətinin dəyişməsi faktları diqqəti daha çox cəlb edir. Göstərilir ki, "*rollu oyunlar hər hansı bir problemə müxtəlif nökteyi-nəzərdən yanaşmağı, müxtəlif rollara girməyi tələb edir. Bu didaktik üsul vasitəsilə şagirdlərə hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözü ilə baxmaq imkanı verir. Əsasən, Ədəbiyyat, Tarix, Həyat bilgisi, İngilis dili dərslərində oxuduğunu daha dərindən dərk etmək üçün rollu oyunlardan istifadə edilə bilər*" [4].

Göründüyü kimi, kurikulum materiallarında Həyat bilgisi dərslərində rollu oyunların təşkilinin mühüm əhəmiyyət kəsb etməsi tövsiyə olunur. Bu mənada Həyat bilgisi fənninin tədrisində rollu oyunlardan məqsədyönlü şəkildə istifadə edilməsi haqqında danışılan problemin müvəffəqiyyətli həllinə kömək etmiş olur.

Təcrübələrimizdən belə qənaətə gəlirik ki, Naxçıvan Muxtar Respublikasının şəhər məktəbləri və kənd məktəblərinin ibtidai sinif müəllimləri həyat bilgisi dərslərində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması üçün rollu oyunlardan demək olar ki, istifadə etmirlər. Doğrudur, ibtidai sinif müəllimlərinin bir qismi Həyat bilgisi fənninin tədrisində az da olsa rollu oyunlardan istifadə edirlər. Lakin onların Həyat bilgisi dərslərində müvafiq mövzuların tədrisi prosesində istifadə etdikləri rollu oyunlar şagirdlərə yalnız mövzu ilə bağlı olan yeni biliklərin, informasiyaların verilməsinə əsaslanır. Yəni ibtidai sinif müəllimləri Həyat bilgisi dərslərində hər hansı mövzunun tədrisi prosesində şagirdlərə həyati bacarıqları qazandırmaq üçün rollu oyunlardan istifadə etmirlər. Bütün bunları nəzərə alaraq biz, təqdim etdiyimiz paraqrafda Həyat bilgisi dərslərində hər hansı bir mövzunun tədrisi prosesində didaktik oyunlardan istifadə etməklə şagirdlərə həyati bacarıqları aşılamağın metodikası ilə bağlı görülən işlərin modelini, məzmununu özündə əks etdirən iş modellərini təqdim etməyi qərarlaşdırmışıq. Bunun üçün ilk növbədə rollu oyunların mahiyyəti, məzmunu ilə bağlı elmi şərhlər aparacaq və onlara şagirdlərin həyati bacarıqlarının

---

[4] Hüseynova, G.A. Kurikulum təliminə praktiki baxış / G.A. Hüseynova.- Bakı: Hədəf Nəşrləri,- 2017.- 356 s. səh.82

formalaşdırılması baxımından imkanları ilə əlaqədar elmi ideyalar, səmərəli müddəalar irəli sürəcəyik.

İkinci fəslin **"İbtidai sinif şagirdlərinə həyati bacarıqların aşılanması üçün fəal dərsin təşkili metodikası"** adlanan ikinci paraqrafda qeyd edilir ki, ibtidai siniflərdə həyat bilgisi fənninin tədrisi zamanı şagirdlərdə həyati bacarıqların formalaşdırılması prosesində nümunəvi iş modelinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Bunun üçün müəllimin kompetensiyalara əsaslanmaları vacib sayılır. Çünki ibtidai sinif müəllimləri öz kompetensiya imkanlarından istifadə etməklə fəal iş formaları yaratmağa nail olurlar. İbtidai sinif müəllimlərinin fəal iş formaları yaratmaları şagirdlərin həyati bacarıqlarının formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Təlimin əsas təşkili forması ümumtəhsil məktəblərində təlim praktikasının təsdiq etdiyi kimi dərsdir. Dərs təlimin elə bir formasıdır ki, burada müəllim-şagird əməkdaşlığı formalaşır, yeni biliklər əldə edilir, yeni bacarıqlar aşılanır, yeni qabiliyyətlər üzə çıxır. Şagird şəxsiyyətinin formalaşmasında müəllim nümunəsinin, müəllim nüfuzunun və xüsusilə də müəllim-şagird əməkdaşlığının böyük rolu vardır.

Həyat bilgisi dərslərində şagirdlərin fəallaşdırılması fəal dərsin təşkilinə zəmin yaratmış olur. Şagirdlərin fəallaşdırılması prosesində şagirdlərdə həyati bacarıqların aşkara çıxarılması müəllim üçün epizodik xarakter daşıyırsa, fəal dərsin təşkilində həyati bacarıqların aşkara çıxarılması, inkişaf etdirilərək formalaşdırılması üçün daha geniş imkanlar yaradır. Hansı ki, bu inkanlardan istifadə etməklə fəal dərsin mərhələlər üzrə həyata keçirilməsi işi asanlaşır. Fəal dərsin mərhələlər üzrə həyata keçirilməsi üçün hər şeydən əvvəl şagirdlərin aktivləşdirilməsi lazım gəlir. Şagirdlərin aktivləşdirilməsi bir növ sinifdə şagirdlərin fəallaşdırılması ilə bağlı görülən işlərə istiqamət vermiş olur.

İkinci fəslin **"Həyat bilgisinin tədrisi prosesində ümumdidaktik prinsiplərə və metodlara istinad etməklə şagirdlərin həyati bacarıqlarının formalaşdırılması"** adlanan üçüncü paraqrafında göstərilir ki, Respublikamızda həyata keçirilən təhsil islahatlarına aid müvafiq sənədlərdə pedaqoji işçilər qarşısında qoyulan ən mühüm

vəzifələrdən biri şagirdlərə həyati bacarıqların aşılanmasıdır. Bu vəzifələrin uğurlu həlli təbii ki, tədris prosesi ilə bağlı olur. Məhz bu baxımdan fənn müəllimləri həmin vəzifələrin həlli işində yaxından iştirak edirlər. Əslində, şagirdlərdə həyati bacarıqların inkişaf etdirilərək formalaşdırılması ilə bağlı bilik, bacarıq və vərdişlər sisteminin aşılanması ibtidai siniflərin bütün fənlərinin tədrisi zamanı məqsədəuyğun hesab edilir. Lakin bu fənlərin içərisində Həyat bilgisi fənninin tədrisi şagirdlərin həyati bacarıqlarının formalaşdırılması baxımından daha geniş imkanlara malikdir. Buna görə də həyat bilgisinin tədrisi zamanı şagirdlərdə həyati bacarıqların formalaşdırılması üçün yeni iş modelinin hazırlanmasına xüsusi ehtiyac duyulur. Milli təhsil sisteminin ən mühüm tərkib hissələrindən biri Həyat bilgisi fənninin tədrisində şagirdlərin həyatı bacarıqlarının formalaşdırılması üçün yeni iş modellərinin yaradılması hesab olunur.

Milli Təhsil Konsepsiyasının əsasında demokratikləşdirmə, hümanistləşdirmə, hümanitarlaşdırma, inteqrasiya, differensiallaşma, fərdiləşdirmə və bir neçə prinsiplər durur. Bu prinsiplər şagirdləri təlim prosesinin fəal iştirakçısına çevirir. Məhz buna görə də bu ümumpedaqoji prinsiplərə istinad etməklə, həyat bilgisi dərslərində hər hansı bir mövzunun tədrisində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması üçün daha geniş imkanlar yaranmış olur. Hansı ki, bu prinsiplər eyni zamanda ümumdidaktik prinsiplər kimi də qəbul edilir. Bu baxımdan, şagirdlərin həyati bacarıqlara yiyələndirilməsi ibtidai siniflərdən başlayaraq sinif müəllimlərinin yeni iş modeli hazırlamaları üçün günün aktual tələblərindən biri hesab olunur.

Həyat bilgisi dərslərində müasir təlim metodlarından istifadə etməklə də şagirdlərə bir sıra zəruri həyati bacarıqları aşılamaq mümkündür. Deməli, həyat bilgisinin tədrisi prosesində ümumdidaktik prinsiplərə və metodlara istinad etməklə şagirdlərin həyati bacarıqların formalaşdırılması üçün məqsəyönlü, planlı mütəşəkkil işləri həyata keçirmək vacibdir. Belə olduqda:

Həyat bilgisinin tədrisi prosesində hümanitarlaşdırma, inteqrasiya, diferensiallaşdırma və fərdiləşdirmə prinsiplərinə istinad etməklə şagirdlərdə bir sıra zəruri həyati bacarıqların aşkara

çıxarılmasına, inkişaf etdirilməsinə və formalaşdırılmasına nail olmaq olar.

Həyat bilgisinin tədrisi prosesində ümumdidaktik metodlara, o cümlədən, müstəqil iş, əyani, müşahidə, demostrasiya, illüstrasiya, yaradıcı, təlimin texniki vasitələri, proqramlaşdırılmış təlim, fəaliyyət motivləri, qruplarla iş, cütlərlə iş, fərdlərlə iş və bu kimi digər təlim metodlarına istinad etməklə ibtidai sinif şagirdlərinin həyati bacarıqlarını günün tələbləri səviyyəsində formalaşdırmaq olar.

Dissertasiyada aşağıdakı **nəticələrə** gəlinmişdir:

1. Azərbaycanda həyata keçirilən təhsil islahatlarına dair direktiv sənədlərdə, xüsusilə Azərbaycanda təhsilin inkişafı üzrə Dövlət Strategiyasında şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması fənn müəllimləri və eləcə də bu sahədə tədqiqat aparanlar qarşısında təxirəsalınmaz vəzifələr qoyur. Bu vəzifələrin müvəffəqiyyətlə həll edilməsi işində ibtidai sinif şagirdlərinin həyati bacarıqlarının formalaşdırılması, şəxsiyyətyönümlü təhsilin yeni məzmununun yaradılması və kiçikyaşlı məktəblilərin şəxsiyyətyönümlü inkişafı üçün mühüm əhəmiyyət kəsb edir və irəliyə doğru atılan müvəffəqiyyətli addımlardan hesab olunur.

2. Ümumtəhsil məktəblərinin ibtidai siniflərində həyat bilgisi fənninin tədrisi prosesində şagirdlərin həyati bacarıqlarının aşılanması və formalaşdırılması işinin məzmunu, mahiyyəti, məqsədi və vəzifələri ilə bağlı bu sahədə çalışan fənn müəllimlərinə elmi, pedaqoji və metodik cəhətdən istiqamətin verilməsi dissertasiyanın elmi yeniliklərindən hesab olunur.

3. Həyat bilgisi fənninin tədrisində şagirdlərdə həyati bacarıqların formalaşdırılması proleminin ədəbiyyatda qoyuluşunun aydınlaşdırılması, bu problemin tədqiq edilməsini zəruri etmişdir. Eyni zamanda bu prosesin də elmi-pedaqoji və metodik ədəbiyyatın olmadığı indiki şəraitdə bu problemin tədqiqinin zəruri olduğunu hesab edərək, şagirdlərdə həyati bacarıqların aşılanması ilə bağlı ibtidai sinif müəllimləri üçün yeni iş modeli hazırlanmışdır.

4. İbtidai siniflərin həyat bilgisi dərslərində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması probleminin məktəb təcrübəsindəki vəziyyətinin öyrənilməsi onu göstərdi ki, hazırkı şəraitdə ibtidai sinif

müəllimləri həyat bilgisi dərslərində şagirdlərə həyati bacarıqların aşılanması işində çətinlik çəkirlər. Bunu nəzərə alaraq dissertasiyada bu çətinlikləri törədən səbəblər aydınlaşdırılmış və bu səbəblərin aradan qaldırılması yolları müəyyənləşdirilmişdir.

5. Həyat bilgisi dərslərində şagirdlərə həyati bacarıqları məqsədyönlü şəkildə aşılamaqdan ötrü bu işin məqsədyönlü şəkildə həyata keçirilməsinə zəruri ehtiyac duyulur. Bunu nəzərə alaraq tədqiqat prosesində şagirdlərə həyati bacarıqların aşılanması işinin elmi əsasları müəyyənləşdirilmiş və onların tətbiqi imkanları müəyyənləşdirilmişdir.

6. Həyat bilgisi dərslərində şagirdlərə həyati bacarıqların aşılanması işinin psixoloji əsasları da müəyyənləşdirilmiş və bu işin də tədqiqi imkanları dəqiqləşdirilmişdir.

7. Həyat bilgisi dərslərində şagirdlərə həyati bacarıqların aşılanması işinin didaktik əsasları müəyyənləşdirilmiş, onların tətbiqi imkanları, yolları, forma və vasitələri sistemə salınmışdır. Bu baxımdan şagirdlərə həyati bacarıqların aşılanması işinin didaktik mahiyyəti aydınlaşdırılmış, bu sahədə müəllimlərə istiqamət vermək üçün yeni metodika hazırlanaraq tətbiq edilmişdir.

8. İbtidai sinif şagirdlərinə həyati bacarıqların aşılanması üçün ilk dəfə olaraq fəal dərsin təşkili metodikası hazırlanmışdır. Həmin iş metodikasının səmərəliliyi isə eksperimental iş vasitəsilə yoxlanılaraq təsdiq edilmişdir.

9. Həyata keçirilən pedaqoji eksperimentin 3 mərhələ üzrə aparılması məqsədəmüvafiq hesab edilmişdir. Belə ki, həyat bilgisi fənninin tədrisi prosesində şagirdlərə həyati bacarıqların aşılanması ilə bağlı özünü ciddi şəkildə göstərən çatışmazlıqlar, ziddiyyətlər və onların aradan qaldırılması yolları müəyyənləşdirilmişdir. Eksperimental işin müəyyənedici mərhələsində müəyyənləşdirilən çatışmazlıqların, ziddiyyətlərin aradan qaldırılması üçün öyrədici materiallar hazırlanmış və pedaqoji eksperimentin öyrədici mərhələsində tətbiq edilmişdir. Pedaqoji eksperimentin öyrədici mərhələsindən alınan nəticələr yoxlayıcı mərhələdə yoxlanılaraq sınaqdan keçirilmişdir. Alınan nəticələrə görə dissertasiyada qoyulan işçi fərziyyənin doğruluğu öz təsdiqini tapmışdır.

10. Dissertasiyada həyat bilgisinin tədrisi prosesində ümumdidaktik prinsiplərə istinad etməklə şagirdlərin həyati bacarıqlarının formalaşdırılması ilə bağlı yeni ideyalar, müddəalar irəli sürülmüşdür. Hansı ki, bu irəli sürülmüş elmi-pedaqoji -metodik ideyalar, müddəalar ibtidai sinif müəllimlərinə həyat bilgisi dərslərində kiçikyaşlı məktəblilərə həyatı bacarıqların aşılanması ilə bağlı elmi-pedaqoji-metodik istiqamətlər vermək baxımından mühüm əhəmiyyət kəsb etməsini xüsusi qeyd etmək lazım gəlir.

Dissertasiyada gəldiyimiz nəticələrlə yanaşı, bir sıra **təklifləri** də irəli sürməyi məqsədəuyğun hesab etmişik:

- İlk təklifimiz orta ümumtəhsil məktəblərində şagirdlərə həyati bacarıqların aşılanmasına istiqamət verən trafaretlərin, stendlərin hazırlanması ilə bağlıdır. Əgər ümumtəhsil məktəblərinin foyelərində, ayrı-ayrı mərtəbələrində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması ilə bağlı metodik göstərişləri özündə əks etdirən lövhələr, stentlər asılarsa, haqqında danışılan problemin müvəffəqiyyətli həlli prosesində müəyyən nailiyyətlər qazanmaq olar;
- Orta ümumtəhsil məktəblərində, yəni ibtidai sinif şagirdlərinin təhsil aldığı sinif otaqlarında kiçikyaşlı məktəbliləri həyati bacarıqlar qazanmağa istiqamətləndirən rəngli şəkillərin asılması yaxşı olardı;
- Orta ümumtəhsil məktəblərində "Kim daha çox həyati bacarıqlar nümayiş etdirər" şüarı altında müsabiqələrin keçirilməsi faydalı olardı;
- İbtidai siniflərin Azərbaycan dili, Texnologiya, Musiqi və Təsviri incəsənət dərsliklərində şagirdlərə həyati bacarıqların aşılanması ilə bağlı mövzuların yer alması faydalı olardı.

**Dissertasiyanın əsas məzmunu və nəticələri müəllifin çap olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır.**

1. Şagirdlərdə sağlam həyat tərzinin formalaşdırılması / "Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi konfrans. NMİ, Naxçıvan şəhəri, 25 noyabr 2016, s. 101-102.

2. Həyat bilgisi fənninin tədrisində sağlam həyat tərzinə dair bilik və bacarıqların nümayiş etdirilməsi / Naxçıvan Muxtar

Respublikasının 95 ilik yubileyinə həsr olunmuş respublika elmi konfransı. NDU, Naxçıvan şəhəri, 28 fevral 2019, s. 243-246.

3. Həyat bilgisi fənninin tədrisində yeni təlim metodlarından və texnologiyalarından istifadə // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. Naxçıvan: Məktəb, 2019, № 2 (56), s. 47-51

4. Ümumtəhsil məktəblərində həyati bacarıqların formalaşmasında fənn kurikulumlarının rolu / "Ümumi təhsildə kurikulum islahatları: nəticələr, reallıqlar və perspektivlər" mövzusunda respublika elmi-praktik konfrans. NMİ, Naxçıvan, 05-06 aprel 2019, s. 73-74

5. "Həyat bilgisi" fənninin tədrisi prosesində rollu oyunlardan istifadə etməklə şagirdlərin həyati bacarıqlarının formalaşdırılması // Naxçıvan Müəllimlər İnstitutunun Elmi Əsərləri, Naxçıvan NMİ "Məktəb" 2019, № 3 (57), s. 75-78.

6. Həyat bilgisi dərslərində şagirdlərə həyati bacarıq aşılanmasının didaktik əsasları // Naxçıvan Müəllimlər İnstitutunun Elmi Əsərləri, Naxçıvan NMİ "Məktəb" 2019, № 4 (58), s. 47-51.

7. İbtidai sinif şagirdlərinə həyati bacarıqların aşılanması üçün öyrədici mühitin yaradılması / "Azərbaycan və Türkiyə Universitetləri: təhsil, elm, texnologiya" I beynəlxalq elmi-praktik konfrans. (I Hissə) Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Texniki Universiteti. Bakı, 18-20 dekabr 2019, s. 275-278.

8. Həyati bacarıqların formalaşmasında fənlərarası inteqrasiyanın imkan və yolları // Naxçıvan Müəllimlər İnstitutunun Elmi Əsərləri, Naxçıvan NMİ "Məktəb" 2020, № 1 (59), s. 79-83.

9. "Formation of student's life skills using teaching tecgniques at life sciences lessons" / Приняла участие в LVIII Международной научной конференции «Актуальные научные исследования в современном мире» г. Переяслав, Украина. № 2 (58) Часть 6, 27.02.2020, s. 6-11.

10. Həyat bilgisinin tədrisi prosesində ümumpedaqoji prinsiplərə istinad etməklə şagirdlərin həyati bacarıqlarının formalaşdırılması // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, Naxçıvan NDU "Qeyrət", 2020, Cild 2, № 1 (102), s. 34-38.

11. “The Use Active Work Forms in the Inculcating the Life Skills among Younger Students” // Науково-практичний журнал, Пивденноукрайнського национального педагогичного университету имени К. Д. Ушинського. Украйна. № 409, 17.03.2020, s. 5-9.

12. İbtidai sinif şagirdlərinin həyati bacarıqlarının formalaşdırılması işinin psixoloji əsasları // Naxçıvan Müəllimlər İnstitutunun Elmi Əsərləri, Naxçıvan NMİ “Məktəb” 2020, № 4 (62), s. 33- 37.

13. İbtidai sinif şagirdlərinin həyati bacarıqlarının formalaşmasında kurikulum islahatlarına praktik baxış / “Ümumi təhsildə kurikulum islahatları: nəticələr, reallıqlar və perspektivlər-2021” mövzusunda respublika elmi-praktik konfrans. NMİ, Naxçıvan, 21 may 2021, s. 133- 134.

14. “Həyat bilgisi” dərslərində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması probleminin elmi-pedaqoji və metodik ədəbiyyatda qoyuluşu / IV Beynəlxalq elmi araşdırmalar konfransı, Elmi iş beynəlxalq elmi jurnal, Bakı, 6 iyun 2021, s. 78-81.

15. Kiçikyaşlı təhsilalanlarda həyati bacarıqların formalaşdırılmasının aktual məsələləri / Müasir təhsilin inkişaf strategiyaları: uğurlar və çağırışlar mövzusunda Beynəlxalq elmi konfrans, NMİ, NDU, ARTİ, T-Network, Naxçıvan 26-27 noyabr 2021, s. 51-54.

16. Həyat bilgisi fənninin tədrisində fəal dərsin mərhələlər üzrə həyata keçirilməsi / The XXV International Scientific Symposium. Civilizational bridges between people and cultures. Azerbaijan-Ukraine 30 years, Kiev-Ukraine, 23 aprel 2022, s.67-70.

17. Pedagogical basis of formation of life skills of primary school students / 8$^{th}$ International Mardin Artuklu Scientific Researches Conference, Mardin, Turkey, 4-6 iyun 2022, s. 477.

18. Şagirdlərin yaradıcı imkanlarından istifadə etməklə rollu oyunların təşkili // “The triumphant leader of the victorious people - İlham Aliyev “dedicated to the 44-day Patriotic War and Karabakh victory, - Stokholm-İsveç, -25 noyabr 2023, s. 225.

Dissertasiyanın müdafiəsi 21 (gün) İyun (ay) 2024-cü (il) il tarixdə

saat 11⁰⁰ Naxçıvan Müəllimlər İnstitutunun nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurasının bazasında yaradılmış BFD 2.40 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, AZ7003, Naxçıvan Müəllimlər İnstitutu.

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 20 May 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.05.2024
Kağızın formatı: 60x84 16\1
Həcm: 40.069 işarə
Tiraj: 100